**«Həyata keçirilən uğurlu islahatlar bizim üçün örnəkdir»**

Qazaxıstan Respublikası Maliyyə Nazirliyi yanında Vergi Komitəsinin sədri Anuar Cumadildayev

...vergilər sahəsində çalışan peşəkar mütəxəssislərin apardıqları səmərəli müzakirələrin yeni innovativ layihələrin meydana gəlməsini stimullaşdırdığını bildirmişdir: «Azərbaycanın büdcə gəlirlərinin formalaşmasında vergi daxilolmalarının həcminin ildən-ilə artması iqtisadiyyatın inkişafının göstəricisi olmaqla yanaşı, həm də vergi orqanlarının işinin düzgün və səmərəli qurulmasının nəticəsidir. Həyata keçirilən iqtisadi layihələr, xüsusən də vergi ödəcəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın azaldılmasına imkan verən müasir texnoloji sistemlər bu sahədə işin operativ qurulmasını və səmərəliliyini təmin edir. Bu baxımdan, hesab edirəm ki, ölkənizin iqtisadi inkişafında Vergilər Nazirliyinin mühüm rolu vardır. Azərbaycanın vergi sahəsində həyata keçirdiyi islahatlar - xüsusilə elektron hesab-fakturaların tətbiqi, vergi və rüsumların elektron formada ödənilməsi məsələləri Qazaxıstanın vergi xidməti orqanı üçün də yaxşı örnəkdir. Biz bu yeniliklərin tətbiqində Azərbaycanın təcrübəsindən istifadə etmək niyyətindəyik. İstəyirik ki, azərbaycanlı mütəxəssisləri bu məsələlərlə bağlı Qazaxıstana dəvət edək və müasir sistemlərin tətbiqində onların dəstəyindən bəhrələnək».